# “Qəlpə adamın başını qopardı, üç dostumu əsir götürdülər” - Xocalıda sonuncu toyun bəyi

**Xocalıda sonuncu toyun bəyi Vasif Qafarovdur. V.Qafarov 1965-ci ildə Xocalıda anadan olub. O, 1992-ci ildən Xocalı Özünümüdafiə Batalyonunun döyüşçüsü olub. Müsahibimiz həmin gecəni belə nəql edib və Xocalıdan çıxanda 26 yaşı olduğunu bildirib:**

”Bizim postumuz aeroporta yaxın ərazidə yerləşirdi. Düşmən artilleriyadan iki saat postumuzu atəşə tutdu. Qarqar çayının Alma bağı deyilən ərazisindən müşahidə edirdik və 366-cı polkun iki BMP-si aeroport istiqamətində Xocalıya girdi. İnsanlar isə zirzəmilərə sığınmışdı. Biz insanları evlərdən çıxarıb xilas etmək üçün şəhərdən aparmağa çalışdıq. Kətik meşəsinin yanında Çayqovuşan deyilən yerdə guya ermənilər əhalinin çıxması üçün koridor qoymuşdular. Gecə saatlarında millət ora toplaşdı”.



O, deyib ki, qarlı, şaxtalı gecədə insanlar Qarqar çayını keçməyə məcbur olublar:

”Çayı keçib meşəyə girdik. Ağdam istiqamətində getməyə başladıq. Səhərə yaxın Qaraqaya deyilən istiqamətə çatanda gördük ki, atışma səsləri gəlir. Sən demə bizdən irəlidə gedənlər ermənilərin mühasirəsinə düşübmüşlər. Biz ora çatanda Əsgəran istiqamətindən iki ”BTR” və iki ”ZİL 131” gəldi. Onların içində hərbçilər dolu idi. BTR yolun ortasında dayandı və kim Ağdam-Şelli istiqamətinə keçə bildisə, keçdi, keçə bilməyəni isə meşəyə doldurdular”.

V.Qafarov həmin yerdə xeyli insanın ermənilər tərəfindən şəhid edildiyini bildirib:

”Qəlpə gözümün qabağında adamın başını qoparıb apardı. Adamların sağ qalanlarını isə əsir götürdülər. Mənim üç dostum əsir düşdü. Xocalıda mənim toyum sonuncu toy kimi xatırlanır. 1992-ci il yanvarın 18-də toyum oldu. Elə toyu da atışmaya görə yarımçıq kəsdik. Şəkildə gördüyünüz dostlarım əsir düşdülər və indiyə kimi onlardan xəbər yoxdur”.

Qeyd edək ki, Xocalı işğaldan azad ediləndən sonra Vasif Qafarovun toy səhnəsi ilə bağlı sənədli film çəkilib.

**Vasif ƏLİHÜSEYN**

Ədalət .- 2026.- 27 fevral (№8).-S.10.